Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e
_______dos. Zaur Məmmədov
"12". "IX". 2025-ci il

# Fənn sillabusu

**İxtisas:** 050810 -"Turizm işinin təşkili"[AB]
**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "Maliyyə idarəetməsi və audit"

## I. Fənn haqqında məlumat

**Fənnin adı:** "İnsan resurslarının idarə edilməsi" (İşçi tədris planı kafedranın 12. 09. 2025-ci il 01 saylı protokolu ilə təsdiq edilmişdir).
**Fənnin kodu:** İPF-B15
**Tədris ili:** I (2025-2026). Semestr: I
**Tədris yükü cəmi:** Cəmi: 30 saat (30 saat mühazirə)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan
**AKTS üzrə kredit:** 4

## II.Müəllim haqqında məlumat:

**Fənni tədris edən müəllimin adı, soyadı, elmi dərəcəsi və elmi adı:** b/m .Hüseynli Nuran Miraqil oğlu
**Kafedranın hüquqi ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a
**Məsləhət saatı:** II-V günlər: saat $12^{00}$-$13^{00}$
**E-mail ünvanı: nurangaga@yahoo.com**

## III. Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodiki materiallar:

1. T.Ə.Quliyev. "İnsan resurslarının idarə edilməsi". Bakı- 2013. 828 s.
2. T.Q.Əliyev, S.T.Əliyev. İnsan resurslarının idarə edilməsi. Bakı,ADNA,2002. 303 s.
3. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, Elm, 2004.
4. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı,2002.
5. Бычкин В.Б. Организация и нормирования труда. М., «Экономика», 2007

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin tədris olunmasına zərurət yoxdur.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** İnsan resurslarının idarə edilməsi bütün təşkilatlarla əlaqədar olan bir tədris və elmi fəndir. Bu fənnin başlıca məqsədi hər bir təsərrüfat subyektində çalışan əməkdaşların fəaliyyətinin səmərəli təşkili və onlardan məqsədyönlü istifadə etməkdən ibarətdir. Təşkilat və müəssisələrdə elə bir məsələ yoxdur ki, nəticə etibarilə insan resursları ilə əlaqədar olmasın. Bu baxımdan, İnsan resurslarının idarə edilməsi həm çoxcəhətli istehsal sistemləri, həm də kompleks problemlərlə bağlıdır, İnsan resurslarının idarə edilməsi fənninin məqsədi bütövlükdə insan resurslarının idarə edilməsi sahəsində mövcud problemləri (təcrübədə özünü doğrultmuş, sınaqdan çıxmış ümumi və xüsusi iqtisadi və sosial məqsədləri) və problemlərin həlli üzrə müvafiq qərarların qəbul edilməsini özündə ehtiva edir.

**VII. Davamiyyətə qoyulan tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbənin biliyi 100 ballı sistemlə qiymətləndirilir: 50 bal semestr dövründə ( o cümlədən 20 bal məşgələ dərslərində fəaliyyətə, 30 bal isə kollekviumun nəticələrinə görə verilir), 50 bal isə imtahanda (hər bir bilet 5 sualdan ibarət olmaqla 10 balla qiymətləndirilir) toplayır.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.
Qiymətləndirmə meyarları aşağıdakılardan ibarətdir:
- 10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal- tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17 baldan az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr dövründə tədris fəaliyyəti nəticəsində toplandığı bala əlavə olunmur.
Tələbənin yekun qiyməti imtahana qədər və imtahanda toplanmış ballar cəmlənməklə aşağıdakı kimi qiymətləndirilir:

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

Yekun qiyməti qeyri-kafi olan tələbə kursu bitirməmiş sayılır və onu növbəti ildə həmin fənn üzrə dərslərdə iştirak etmək şərtilə yenidən verməlidir.

**IX. Davranış qaydamlarının pozulması:** Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görülür.

**X.Fənn üzrə tədris olunan mövzular:**

| № | Keçirilən <u>mühazirə</u>, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Müh. Saat | Tarix |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | Mühazirə mövzuları | | |
| 1. | Mövzu 1:İnsan resurslarının idarə edilməsi fənninin mahiyyəti və məzmunu<br>Plan:<br>1. İdarəetmə anlayışı, müasir dövrdə onun əhəmiyyəti<br>2. İdarəetmənin obyekti, növləri və metodları<br>3. İdarəetmənin inkişaf dövrləri (mərhələləri)<br>4.İnsan resurslarının idarə edilməsinin əsas məsələləri<br>5.Heyətin idarə edilməsinin əsas konsepsiyaları və funksiyaları<br>6. Fənnin məzmunu və digər elmlərlə əlaqəsi<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 2. | Mövzu 2: Əhali. Əmək ehtiyatları və əmək potensialı, işçi qüvvəsinin təkrar istehsalı<br>Plan:<br>1.Əhali idarəetmə və elmi dərketmənin obyekti kimi. Demoqrafiya və iqtisadiyyat<br>2. Əhalinin təkrar istehsalı və quruluşu<br>3. Əmək potensialı, əmək ehtiyatları, iqtisadi fəal və qeyri-fəal əhali<br>4. İşçi qüvvəsinin, əhalinin təkrar istehsalının əsas xüsusiyyətləri, tarixi şərtləri<br>5. Əmək ehtiyatları və onlardan istifadə<br>6. Əhalinin miqrasiyası<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 3. | Mövzu 3: İş qüvvəsinin təkrar istehsalının fazaları və onları tənzimləyən iqtisadi qanunlar sistemi<br>Plan:<br>1. "Əmək qabiliyyəti" və "iş qüvvəsi" anlayışlarınınməzmunu<br>2. İş qüvvəsinin təkrar istehsalının fazaları<br>3. İş qüvvəsinin istehsalını və təkrar istehsalını tənzimləyən qanunlar sistemi<br>4. Xalq təsərrüfatının işçi qüvvəsilə təminolunma mənbələri<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 4. | Mövzu 4: Əmək bazarı və məşğulluq insan resurslarının reallaşmasının başlıca sferası kimi<br>Plan:<br>1. Məşğulluq, məşğulluğun dövlət siyasəti və məşğulluğun strukturu<br>2. Keçid dövründə məşğulluğun əsas meyilləri və məşğulluq prinsipləri<br>3. Məşğulluğun beynəlxalq standartlar üzrə təsnifatı və növləri<br>4. İşsizlik, onun formaları<br>5. ETT və işçi qüvvəsinin yenidən bölüşdürülməsi problemi<br>6. Əmək bazarının təhlili insan resurslarının idarə edilməsinin mühüm metodu kimi<br>7. Əmək bazarının tənzimlənməsi<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 5. | Mövzu 5: İnsan "kapitalının" mahiyyəti və və onun idarə edilməsi<br>Plan:<br>1. İşgüzar sahibkarlıq - intellektual fəaliyyətin daşıyıcısı kimi<br>2. İntellektual mülkiyyət və onun formaları<br>3. Sosial kapital və insan resurslarının formalaşması<br>4. İntellektual potensial: əmək fəaliyyətinin dəyişməsi qanunu<br>5.İnsan "kapitalının" kommersiyalaşması<br>6. İnsan "kapitalı", insan potensialı və işçi qüvvəsi<br>7. İntellektual kapitalın idarə olunması | | 2 |

| | | | |
|---|---|---|---|
| | Mənbə: [1;2;3;4] | | |
| 6. | Mövzu 6: Bilik, təhsil və innovasiyalı iqtisadiyyat<br>Plan:<br>1. İntellekt və kreativlik<br>2. Bilik, təhsil və insan potensialına investisiya qoyuluşu<br>3. Bilik və bilik sferasında rəqabət mühitinin formalaşması<br>4. Ənənəvi baza, fasiləsiz təhsil və həyatın keyfiyyəti<br>5. Biliyin, intellektual əməyin idarə edilməsi<br>6. Biznes təhsili<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 7. | Mövzu 7: İstehsalın səmərəliliyinin yüksəldilməsi və insan resursları<br>Plan:<br>1. Bazar sistemi və əməyin səmərəliliyi<br>2. Əmək məhsuldarlığına təsir edən amillərin təsnifatı<br>3. Əmək məhsuldarlığının ölçülməsi üsulları, üstün və çatışmayan cəhət-ləri<br>4. İstehsal güclərindən istifadənin əmək məhsuldarlığına təsiri<br>5. Əmək intizamının möhkəmləndirilməsi və onun əmək məhsuldarlığına təsiri<br>6. İş vaxtından istifadə<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 8. | Mövzu 8: Heyətin əməyinin elmi təşkili<br>Plan:<br>1. Əməyin təşkilinin təkmilləşdirilməsi bazar sisteminin mütləq tələbi kimi<br>2. Əməyin elmi təşkili anlayışu tarixi, istiqamətləri və səviyyəsi<br>3. ƏET-nin planlaşdırılması<br>4. ƏET sistemində əmək bölgüsü və əmək kooperasiyası<br>5. İş yerlərinin təşkili<br>6. İdarəçilik əməyinin elmi təşkili<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 9. | Mövzu 9: İnsan resurslarının idarə edilməsində əmək davranışı və əməyin motivləşdirilməsi<br>Plan:<br>1. Tələbat və əmək fəaliyyəti<br>2. Mənafelər və əmək fəaliyyəti<br>3. Əmək fəaliyyətinin motivləşdirilməsi<br>4. Əmək intizamı sosial hadisə kimi<br>5. Sosial nəzarət; mahiyyəti, əhəmiyyəti və növləri<br>6. İşçilərin özünüdərketməsi və mənəvi dəyərlər problemi<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 10 | Mövzu 10: İnsan resurslarının strateji planlaşdırılması və idarə edilməsi<br>Plan:<br>1. Strateji menecment və insan resursları<br>2. İnsan resurslarının idarə edilməsi strategiyasının formalaşması<br>3. Strateji təfəkkür və gələcəyin idarə edilməsi<br>4. Strategiyada resurs potensialı problemi<br>5. İnsan resurslarının, heyətin idarə edilməsi strategiyası<br>Mənbə: [1;2;3;4] | | 2 |
| 11 | Mövzu 11: Kadr siyasəti, kadrlarla aparılan iş və kadr strategiyası<br>Plan:<br>1. Müasir dövrün kadr siyasəti və iş üslubu<br>2. Əhalinin təhsil potensialı və kadr seçimi problemləri<br>3. Demokratiya və rəhbər işçinin iş üslubu<br>4. Şirkətlərin kadrla bağlı xərcləri və kadr auditi, kadr informasiyası<br>5. Karyera və onun idarə edilməsi. Kadrların rotasiyası<br>6. Kadrların formalaşmasında təşkilati struktur və onun layihələndirilməsi<br>7. Qiymətləndirmə və attestatsiya - kadrlarla aparılan işin başlıca atributu kimi<br>8.Yeni işçilərin işə qəbulu, testləşdirilməsi. seçilməsi, yerləşdirilməsi və öyrədilməsi<br>9. Təşkilat və müəssisələrə məsləhətçinin cəlb edilməsi və qiymətləndirilməsi<br>Mənbə: [1;2;3;4] | | 4 |
| 12. | Mövzu 12: İnsan resurslarının idarə edilməsində kadrların peşə-ixtisas hazırlığı<br>Plan:<br>1. Peşə meyli və peşə seçimi motivləri<br>2. Gənclərin peşə seçimi problemləri və əməyə uyğunlaşma<br>3. Fəhlə kadrlarının hazırlanması və ixtisasının artırılması sistemi<br>4. Kadr hazırlığında struktur dəyişikliklərinin nəzərə alınması | | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | 5. Peşə hazırlığı və işçinin əmək bazarında rəqabət qabiliyyəti<br>6. İşçi heyətinin marketinqi<br>Mənbə: [1;2;3;4] | | | |
| 13. | Mövzu 13: Əməyin ödənilməsinin təşkili və idarə edilməsi<br>Plan:<br>1. Əmək haqqının mahiyyəti, real əmək haqqı və real gəlir<br>2. Əmək haqqı - iş qüvvəsinin qiyməti kimi<br>3. Əmək haqqının təşkilinin əsas prinsipləri və ünsürləri<br>4. Əmək məhsuldarlığı artımının əmək haqqının artımını qabaqlaması prinsipi<br>5. Fəhlələrin əməyinin ödənilməsinin forma və sistemləri<br>Mənbə: [1;2;3;4] | | | |
| 14. | Mövzu 14: Münaqişələr. Münaqişəli situasiyalar və onların idarə edilməsi<br>Plan:<br>1. İnsan resurslarının idarə edilməsinin münaqişə problemləri<br>2.Müəssisədaxili münaqişələrin növləri və onların meydana çıxmasına təsir edən amillər<br>3. Əmək prosesində münaqişə situasiyası və onun həlli yolları<br>4. Münaqişə və sosial partnyorluq (tərəfdaşlıq) problemi<br>5. Ünsiyyət və kollektivin birliyi<br>Mənbə: [1;2;3;4] | | | 2 |
| X | Cəmi: | | | 30 |

**XI.Fənn üzrə tələblər:** Tələbə fənninin öyrənilməsi nəticəsində bacarmalıdır:insan resurslarının axtarılması, seçilməsi, adaptasiyası və formalaşmasını; kadr nəzarəti və kadr planlaşdırılmasının həyata keçirilməsini;işçiləri motivasiyalı idarə etməni;insan resurslarının inkişafı proqramının hazırlanmasını; fəaliyyət zamanı əməkdaşlar arasında baş verən münaqişələri həll etməyi və vəziyyətə nəzarəti ələ almağı;insan resurslarının idarə olunmasının səmərəliliyinin qiymətləndirməsini.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- İş qüvvəsinin təkrar istehsalının fazaları və onları tənzimləyən iqtisadi qanunlar sistemini öyrənir;
- Əmək bazarı və məşğulluğun reallaşmasını mənimsəyir;
- İnsan resurslarının idarə edilməsində əmək davranışı və əməyin motivləşdirilməsi bacarığına yiyələnir;
- Kadr siyasəti, kadrlarla aparılan iş və kadr strategiyası yollarını mənimsəyir;
- Münaqişəli situasiyalar və onların idarə edilməsi bacarığına yiyələnir.

**XIII.Tələbələrin fənn haqqında rəy və iradları:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. İdarəetmə anlayışı, müasir dövrdə onun əhəmiyyəti
2. İdarəetmənin obyekti, növləri və metodları
3. İdarəetmənin inkişaf dövrləri (mərhələləri)
4. Əhalinin təkrar istehsalı və quruluşu
5. Əmək potensialı, əmək ehtiyatları, iqtisadi fəal və qeyri-fəal əhali
6. İş qüvvəsinin təkrar istehsalının fazaları
7. Xalq təsərrüfatının işçi qüvvəsilə təminolunma mənbələri
8. Məşğulluq, məşğulluğun dövlət siyasəti və məşğulluğun strukturu
9. İşsizlik, onun formaları
10. İntellektual mülkiyyət və onun formaları

**II Kollokvium sualları**

1. İntellekt və kreativlik
2. Əmək məhsuldarlığının ölçülməsi üsulları, üstün və çatışmayan cəhətləri
3. Əmək intizamının möhkəmləndirilməsi və onun əmək məhsuldarlığına təsiri
4. İdarəçilik əməyinin elmi təşkili
5. Əmək fəaliyyətinin motivləşdirilməsi
6. Strateji menecment və insan resursları
7. Müasir dövrün kadr siyasəti və iş üslubu
8. Demokratiya və rəhbər işçinin iş üslubu
9. Şirkətlərin kadrla bağlı xərcləri və kadr auditi, kadr informasiyası
10. Qiymətləndirmə və attestatsiya - kadrlarla aparılan işin başlıca atributu kimi

## XV. İmtahan sualları:

1. İdarəetmə anlayışı, müasir dövrdə onun əhəmiyyəti
2. İdarəetmənin obyekti, növləri və metodları
3. İdarəetmənin inkişaf dövrləri (mərhələləri)

4. İnsan resurslarının idarə edilməsinin əsas məsələləri
5. Əhalinin təkrar istehsalı və quruluşu
6. Əmək potensialı, əmək ehtiyatları, iqtisadi fəal və qeyri-fəal əhali
7. Xalq təsərrüfatının işçi qüvvəsi ilə təmin olunma mənbələri
8. Əhalinin miqrasiyası
9. İş qüvvəsinin təkrar istehsalının fazaları
10. İş qüvvəsinin istehsalını və təkrar istehsalını tənzimləyən qanunlar sistemi
11. Məşğulluq, məşğulluğun dövlət siyasəti və məşğulluğun strukturu
12. İşsizlik, onun formaları
13. Əmək bazarının təhlili insan resurslarının idarə edilməsinin mühüm metodu kimi
14. İşgüzar sahibkarlıq - intellektual fəaliyyətin daşıyıcısı kimi
15. İntellektual mülkiyyət və onun formaları
16. İntellekt və kreativlik
17. Bilik, təhsil və insan potensialına investisiya qoyuluşu
18. Ənənəvi baza, fasiləsiz təhsil və həyatın keyfiyyəti
19. Əmək məhsuldarlığına təsir edən amillərin təsnifatı
20. Əmək məhsuldarlığının ölçülməsi üsulları, üstün və çatışmayan cəhətləri
21. Əmək intizamının möhkəmləndirilməsi və onun əmək məhsuldarlığına təsiri
22. İş vaxtından istifadə
23. Əməyin elmi təşkili anlayışu tarixi, istiqamətləri və səviyyəsi
24. Əməyin elmi təşkili sistemində əmək bölgüsü və əmək kooperasiyası
25. İdarəçilik əməyinin elmi təşkili
26. Tələbat və əmək fəaliyyəti
27. Əmək fəaliyyətinin motivləşdirilməsi
28. Əmək intizamı sosial hadisə kimi
29. Strateji menecment və insan resursları
30. İnsan resurslarının idarə edilməsi strategiyasının formalaşması
31. Müasir dövrün kadr siyasəti və iş üslubu
32. Əhalinin təhsil potensialı və kadr seçimi problemləri
33. Demokratiya və rəhbər işçinin iş üslubu
34. Şirkətlərin kadrla bağlı xərcləri və kadr auditi, kadr informasiyası
35. Karyera və onun idarə edilməsi. Kadrların rotasiyası
36. Qiymətləndirmə və attestatsiya - kadrlarla aparılan işin başlıca atributu kimi
37. Peşə meyli və peşə seçimi motivləri
38. Gənclərin peşə seçimi problemləri və əməyə uyğunlaşma
39. Fəhlə kadrlarının hazırlanması və ixtisasının artırılması sistemi
40. Əmək haqqının mahiyyəti, real əmək haqqı və real gəlir
41. Əmək haqqının təşkilinin əsas prinsipləri və ünsürləri
42. İnsan resurslarının idarə edilməsinin münaqişə problemləri
43. Müəssisədaxili münaqişələrin növləri və onların meydana çıxmasına təsir edən amillər
44. Əmək prosesində münaqişə situasiyası və onun həlli yolları
45. Ünsiyyət və kollektivin birliyi

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasının 12 sentyabr 2025-ci il (01 saylı protokol) tarixli iclasında təs olunmuşdur.

Kafedra müdiri: dos. Əlixan Bədə

Fənn müəllimi: b/m. Nuran Hüseyn